# AZƏRBAYCAN RESPUBLİKASI

# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

# İLƏ

# RUMINİYA

# ƏMƏK, SOSİAL HƏMRƏYLİK VƏ AİLƏ NAZİRLİYİ

# ARASINDA

# ƏMƏKDAŞLIQ HAQQINDA

# P R O T O K O L

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniya Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi (bundan sonra Tərəflər),

arasında dostluq münasibətlərinə və sosial və iqtisadi sahələrdə mövcud qarşılıqlı faydalı əlaqələrə əsaslanaraq,

əmək və sosial müdafiə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə aşağıdakılar barədə razılığa gəlmişlər:

MADDƏ 1

Tərəflər əsasən informasiya və təcrübə mübadiləsi yolu ilə aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) əmək, məşğulluq və sosial müdafiə sahəsində milli qanunvericilik;

b) əmək münasibətlərinin və əməyin təhlükəsizliyinin tənzimlənməsi sahəsində milli qanunvericiliyin tətbiq olunması mexanizmlərinə dair;

c) əlillərə xidmət göstərilməsi, onların reabilitasiyası;

d) ailə məsələləri sahəsində həyata keçirilən tədbirlər üzrə;

e) əmək bazarının təhlili, məlumatların toplanması və peşə hazırlığı sahəsi üzrə;

f) milli əmək bazarı və milli əmək bazarında xarici işçi qüvvəsinin iştirakının tənzimlənməsi üzrə;

g) sosial tərəfdaşlığın inkişafı və sosial yardım sistemində islahatların həyata keçirilməsində;

h) sosial müdafiə sistemində idarəetmənin təkmilləşdirilməsi məqsədilə informasiya texnologiyalarının tətbiqinə dair.

MADDƏ 2

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda inkişaf etdirəcəklər :

a) ekspertlərin mübadiləsi;

b) ekspertlərin məsləhətləşmələri və əlavə hazırlıqları;

c) hər iki Tərəfin fəaliyyəti ilə əlaqədar, xüsusilə də əmək, məşğulluq, sosial yardım, sosial müdafiə və risk qruplarının sosial inteqrasiyası ilə bağlı siyasət və proqramların həyata keçirilməsi, qanunvericilik ilə bağlı təkliflərin və digər məlumatların informasiya mübadiləsi;

d) beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən layihələr ilə bağlı əməkdaşlığın dəstəklənməsi;

e) Tərəflərin tabeçiliyində olan icraedici təşkilat və qurumlar arasında əməkdaşlığın dəstəklənməsi.

MADDƏ 3

Bu Protokol, Tərəflərin maliyyə imkanlarından asılı olaraq, iki illik müddətlərə nəzərdə tutulmuş birgə iş planları çərçivçsində həyata keçiriləcəkdir.

## MADDƏ 4

1. Bu Protokolun çərçivəsində razılaşdırılmış planların həyata keçirilməsi ilə bağlı xərclər aşağıda göstərildiyi kimi ödənilir:

a) beynəlxalq yol xərclərini göndərən Tərəf ödəyir;

b) qalma və təşkili xərclər: tədbir proqramı ilə təsdiq edilmiş mehmanxana, qida, tərcümə və ölkədaxili nəqliyyat xərclərini qəbul edən Tərəf ödəyir.

## MADDƏ 5

Bu Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurаların yerinə yetirilməsi haqqında Tərəflərin yazılı surətdə ikinci bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Protokol beş il müddətinə qüvvədə qalacaq və Tərəflərin onu ləğv etməyəcəkləri təqdirdə, müddəti avtomatik növbəti beş illik müddətlərə uzadılacaqdır.

Bu Protokol ləğv edildikdə, onun müddəti ləğv edilməsi barədə diplomatik kanallarla göndərilən yazılı bildirişin alındığı tarixdən 6 ay sonra qüvvəsini itirəcəkdir.

Bu Protokol Buxarest şəhərində «11» oktyabr 2004-cü il tarixində, bütün mətnlər eyni qüvvəyə malik olmaqla, iki əsl nüsxədə Azərbaycan, Rumın və ingilis dillərində imzalanmışdır. Bu Protokolun müddəalarının təfsiri zamanı fikir ayrılığı yaranarsa ingilis dilində olan mətn əsas götürüləcəkdir.

| Azərbaycan Respublikası<br>Əmək və Əhalinin Sosial<br>Müdafiəsi Nazirliyi | Rumıniya<br>Əmək, Sosial Həmrəylik və<br>Ailə Nazirliyi |
|---|---|